# Tək bir əklil...

Həyatın hər üzünü görmək, hər üzə də özünəməxsus tərzdə yanaşmaq lazımdır. Bu həyatın danılmaz qanunudur.

Əsl insan olana ən xəfif təbəssüm belə məna ifadə edir. Ən adi baxış belə özünəməxsus təəssürat yaradır. Ən adi, xəfif hərəkət belə öz tərzini büruzə verir. Ən adi söz isə qəlblərə əbədi iz salır, heç unudulmur. Sonradan deyilən sözlər bir yamaq təəssüratı (əgər deyilərsə) bəxş edir insana. Ona görə; məhz buna görə də hər kəs öz hərəkət və danışıq tərzinə diqqət etməlidir ki, nə vaxtsa «kaş ki» deməsin, peşmanlıq çəkməsin.

Mən kəndin kitabxanaçısı Natəvan Yusifovadan xahiş etmişdim ki, məktəbə birgə gedək, kənd sakinləri ilə görüşək, Aqşin və onun ailəsi haqqında öyrənək...

Natəvan xanımla kəndin şəhidlərini əvvəlcə ziyarət etdik, şəhid lövhələri ətrafına gül qoyduq. Daha sonra isə böyük bir maraq hissilə məktəbə yollandıq.

Aqşin haqqında kitab yazdığımı və bununla əlaqədar «əlaqəsi» olmasa belə, bu kəndin şəhidi olduğuna, ata-anasının isə bu məktəbin şagirdləri olmasına rəğmən məktəb kollektivi ilə tanış olmaq, məktəbdə Aqşinlə bağlı xatirələrə baxmaq istədim. Ona görə də kənd məktəbinə üz tutduq.

Məktəb qapısından girəndən dəhliz boyu heç kimlə rastlaşmadıq. Sovet dönəmində bu məktəbdə keçirilən bir neçə tədbirlərdə qəzet işçisi kimi iştirak etmişdim. Dəhlizdə Aqşinlə bağlı lövhə var idi, onu şəhidin atası Faiq Abdullayev hazırlayıb məktəbə təqdim etmişdi. Lövhənin aşağısında bir stol qoyulmuşdu, üstündə də bir neçə qərənfil var idi.

Aqşinin şəkilləri olan lövhənin yanında xatirə şəkli çəkdirdik. Lövhə müəllimlər otağının qarşısında idi. Məktəbin direktorunu soruşduq, onun məktəbdə olmadığını və bir azdan gələcəyini söylədilər. Biz şəkil çəkdirərkən bir qadın müəllimə də bizimlə görüşüb xatirə şəkli çəkdirdi. Sonradan öyrəndiyimiz məlumata görə bu Sevil müəllimə idi. Məktəbin müəllimi Gülsabah müəllimə bizi səmimi qarşıladı və bu səmimilikdən istifadə edərək elə dəhlizdə ondan bəzi məlumatları almaq istədim.



Ona məqsədimi bildirdim, həmçinin Aqşinlə bağlı sorğu-suala başladım. Bu zaman bir az yaşlı bir qadın müəllimə də bizə yaxınlaşdı və xoş gəldin dedi. Mən Aqşin haqqında sinif otağı, onunla bağlı məktəblilərlə hansı tədbirlərin keçirilməsi, ailəsi ilə görüş keçirilməsi və Aqşinin ev muzeyinin ziyarət edilib-edilməməsi haqqında soruşdum. Yaşlı müəllim bizə - Natəvan xanımla mənə ikinci mərtəbəni əli ilə göstərərək dedi ki, (bu xanım məktəbin direktor əvəzi Gülnarə xanım idi) qalxın, yuxarı mərtəbədə onun sinif otağı var. Pərtliyimi büruzə verməyərək yuxarı qalxdım. Natəvan Yusifova məni tək qoymadı. İkinci mərtəbədə kiçik bir otaqda onuncu sinfin «qonağı» olduq. Sinif qapısında heç bir şəkil, nişanə yox idi. Sinif otağı sadə 7-8 nəfər şagirdlə dərsdə idi...

Partaların arxasında Aqşin Ənvərli haqqında plakat var idi. Plakatda onun tərcümeyi-halı yazılmışdı, həm də qısa formada.

Şagirdlərdən onun haqqında; neçə yaşında şəhid olmasını soruşduqda müxtəlif cavablar eşitdim. Onlardan yalnız bir nəfər sorğuya doğru cavab verdi.

Şəhid haqqında tədbirlər, ataanası (onlar bu məktəbin məzunu olublar) ilə görüşlər keçirilməsi ilə bağlı soruşduqda şəhid ailəsi ilə görüş keçirilməsi xəbərinə yanlışlıqla «hə» dedilər. Çünki bu barədə o ailədə olarkən soruşub öyrənmişdim. Şəhid sizin kəndin, sizin şəhidinizdir, tez-tez ziyarət edirsinizmi? - dedikdə Gülsabah müəllimə dedi ki, o bizim şəhid deyil ki, bizim şəhid məktəbimizin adını daşıyan, birinci Qarabağ Müharibəsində şəhid olmuş Murad Əlibəyovdur. Aqşin bizim məktəbdə oxumayıb ki...

Mən isə: - Amma bu kənddə dəfn olunub, sizin kəndinizə də indi «Aqşinin kəndi» də deyirlər. O hamımızın şəhididir, fəxr etdiyimiz bir addır onun adı. Əlbəttə, biz hər iki müharibənin, ümumiyyətlə, bütün şəhidlərin adlarını iftixarla çəkirik, hər biri bizim and və şərəf yerimizdir, - dedim.

Müəllimə isə: - Əlbəttə, bütün şəhidlər bizimdir, Aqşin bizim məktəbdə oxumadığı üçün dedim.

Mən təkrar qeyd etdim ki, Aqşinin valideynləri bu məktəbin məzunlarıdır. Onun soy-kökü Xırxataladadır. Məhz ona görə bu kənddə dəfn olunmuşdur. Biz də ona görə bu məktəbdəyik ki, şəhidin belə qəhrəmanlıq xüsusiyyətlərinin haradan qaynaqlandığını öyrənək.

Başqa bir müəllimə isə: - Biz keçən il onun məzarı üstünə əklil hazırladıb aparmışdıq.

Doğrusu bu xəbər məni heç qane etmədi. Çünki onun məzarı üstündə 28 əklil var idi. Nə vaxtsa bir əklil aparmaq şəhidin xatirəsini yaşatmaq deyildir axı...

Bu görüşümüz mənə pis təsir etsə də, onlara bildirdim ki, keçən 27 sentyabr ərəfəsində Aqşinin məzarını onun anası Dilruba xanım və oğlumla ziyarətə gələrkən bir qrup (9-10 nəfər) şagirdin, səhv etmirəmsə 7-ci sinif şagirdləri idi; əllərində gül dəstələri şəhidi ziyarətə gəldiklərinin şahidi olmuşduq. Bu, məktəbdə gənc nəslin vətənpərvərliyinin təzahürü idi. Onlar şəhidinə qiymət verir, hörmət edirlər. Şəhidinə qiymət isə Vətəninə qiymət demək idi. Bu haqda "Qəbələ" qəzetinin nömrələrinin birində yazı dərc olunmuş, uşaqların şəkli verilmişdir.

Bəlkə də məktəbdə rastlaşdığım bu hadisə təsadüfi idi. Onlar da şəhidini sevən, vətənpərvər bir ziyalı, həmyerlidirlər. Ancaq unutmayaq ki, təsadüflərə də diqqət edək və şəhidləri həmişə eyni qiymətləndirək. Çünki şəhadət yolçuları məhz bu xalqın, bu torpağın azadlığı üçün döyüşmüş, canlarını qurban vermişlər.

**BİBİXANIM.**

# Tarixi günlər

1 oktyabr 1880 - Tomas Edison ilk elektrik lampası fabrikini açdı.

4 oktyabr 1959 - Sovet kosmik aparatı Ayın görünməyən hissəsinin şəklini çəkmişdir.

6 oktyabr 1951 - Stalin SSRİ-nin atom silahına malik olduğunu bəyan etmişdir.

8 oktyabr 1601 - Azərbaycan şairi Saib Təbrizi anadan olmuşdur.

9 oktyabr 1941 - Azərbaycanlılardan ibarət 223-cü Milli Diviziya yaradılmışdır.

11 oktyabr 1997 - Azərbaycan Avropa Mədəniyyət Konvensiyasına qoşuldu.

11 oktyabr 1999 - Azərbaycan - Ermənistan sərhəddinin Sədərək rayonu ərazisində prezidentlər Heydər Əliyev və Robert Koçaryan arasında görüş keçirildi.

11 oktyabr 2007 - Tiflisdə Cənubi Qafqaz jurnalistlərinin 4-cü toplantısı keçirildi.

12 oktyabr 1813 - Rusiya və İran arasında Gülüstan müqaviləsi imzalandı və Azərbaycanda rus işğalının birinci mərhələsi başa çatdı.

12 oktyabr 1997 - Azərbaycanda "Space" televiziya kanalı yayıma başladı.

13 oktyabr 1792 - ABŞ-da Ağ Ev binasının təməli qoyulmuşdur.

13 oktyabr 1827 - Rus-İran müharibəsi: rus qoşunları Təbrizi ələ keçirmişdir.

13 oktyabr 1880 - Bakı - Sabunçu - Suraxanı xəttinin istifadəyə verilməsi ilə Azərbaycanda dəmir yolu nəqliyyatının əsası qoyulmuşdur.

13 oktyabr 1905 - Türkiyənin Qalatasaray idman klubu yaradılmışdır.

13 oktyabr 1921 - ZSFSR ilə Türkiyə arasında Qars müqaviləsi imzalanmışdır.

13 oktyabr 1923 - Türkiyə Böyük Millət Məclisi Ankaranın Türkiyə paytaxtı olması ilə bağlı qərar qəbul etmişdir.

14 oktyabr 1743 - Şirvanda üsyan: Üsyançılar Ağsu şəhərini ələ keçirdilər.

14 oktyabr 2006 - Darlıq Qarabağın Azərbaycan icması Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçdi.

15 oktyabr 1806 - Bakı xanlığı Rusiyanın tabeliyinə keçdi.

15 oktyabr 2008 - İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi.

18 oktyabr 1991 - Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etdi.

18 oktyabr 1991 - SSRİ Ali Sovetinin son iclası keçirildi.

20 oktyabr 1923 - Azərbaycan SSR rəsmi olaraq Latın qrafikalı əlifbaya keçdi.

24 oktyabr 2008 - Prezident İlham Əliyevin andiçmə mərasimi keçirilmişdir.

25 oktyabr 1913 - "Arşın mal alan" operettasının ilk tamaşası Tağıyev teatrında səhnələşdirildi.

26 oktyabr 1992 - Azərbaycan Milli Olimpiya Komitəsi yaradıldı.

28 oktyabr 1998 - İkinci müddətə Azərbaycan Respublikasının prezidenti seçilən Heydər Əliyevin andiçmə mərasimi keçirildi

30 oktyabr 1914 - Birinci dünya müharibəsinin əsas döyüşlərindən olan İpr döyüşü başladı.

30 oktyabr 1918 - Osmanlı dövləti ilə Antanta arasında Mudros sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Qafqazdakı türk qoşunları geri çəkilməli idi.

30 oktyabr 1941 - İkinci dünya müharibəsi ABŞ SSRİ-yə 1 milyard dollar dəyərində hərbi-texniki yardım ayırdı

31 oktyabr 2006 - Gəncə Beynəlxalq Hava Limanı əsaslı təmirdən sonra açıldı.

# Bu, sadəcə, başlanğıcdır

**(Əvvəli 4-cü səhifədə).**

Dənizdəki yataqlardan ilk neft ötən əsrin ortalarında istehsal olunub. İndi ölkəmizin zəngin yanacaq ehtiyatlarının olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfədir. Bugünkü mərasim gələcək planlar üçün yaxşı nümunədir və Birləşmiş Ərəb Əmirliklərindən olan bir çox şirkətlərə gəlib ölkəmizlə işləmək üçün yaxşı siqnal olacaq. Bu yaxınlarda milli neft şirkətlərimiz, enerji şirkətlərimiz ADNOC və SOCAR artıq Azərbaycanda rəsmi olaraq tərəfdaş olublar. Artıq Birləşmiş Ərəb Əmirliklərində və digər ölkələrdə birlikdə işləmək üçün planlar var. Beləliklə, biz indi həqiqətən də ölkələrimiz, hökumət strukturlarımız və şirkətlərimiz arasında əməkdaşlığın inkişafının yeni mərhələyə yüksəldiyini görürük. Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində ölkəmizin çoxmilyardlı investisiya portfoliomu olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür.

Hazırda dövlətimizin iqtisadi hədəfi qazıntı yanacağından asılılığı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir. Lakin eyni zamanda başa düşülür ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi neft və qaz müxtəlif istiqamətlərə ixrac edilir. Azərbaycan beynəlxalq bazarlara neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ixracatçısıdır. Əlbəttə ki, növbəti illərdə ölkəmiz hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac edəcək. Bu da birbaşa ölkənin xarici borcunu ümumi daxili məhsulun 10 faizindən aşağı səviyyəyə salmağa və bununla da iyirmi il bundan əvvəlki 50 faizə yaxın olan yoxsulluq səviyyəsinin 5,5 faizə endirilməsinə nail olunmuşdur. Beləliklə, bu onu göstərir ki, neft və qaz ixracından daxil olan gəlirlərin ədalətli paylanılması tamamilə yeni reallığı yaradır. Növbəti illərdə dövlətimiz qısa müddət ərzində milli enerji şəbəkəsinin gücləndirilməsini təmin edəcək dövlət proqramını icra etməyi planlaşdırır. Eyni zamanda dövlətin bərpa olunan enerji gündəliyi təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımız fəal şəkildə inkişaf etdirilir. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub. Azərbaycanın təbii sərvətlərinin istifadəsi üçün böyük potensialı var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib. Çünki külək həmişə, xüsusilə də təyyarə ilə enəndə bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir. Bunu, ola bilsin, 10-20 il bundan əvvəl təsəvvürə gətirmək çətin olardı. Lakin indi bu belədir və xüsusilə Xəzər dənizində külək çox güclüdür, hətta bu gün buradakı külək onu göstərir ki, bu potensial buradadır. Beləliklə, bunlar gələcək üçün planlardır. Əlbəttə, bu investisiyalar dövlətimizə böyük həcmdə təbii qaza qənaət etmək imkanını verəcək ki, həmin qaz hazırda elektrik enerjisi istehsalı üçün istifadə edilir. Söhbət ixrac üçün qənaət ediləcək bir neçə milyard kubmetr təbii qazdan gedir. Çünki son geosiyasi dəyişikliklər nəticəsində Azərbaycan qazına Avropada heç vaxt olmadığı qədər daha çox ehtiyac var. Odur ki, dövlətimiz əsas daşıma infrastrukturunu, Xəzər dənizindəki yataqlardan Avropaya qədər uzanan 3500 kilometrlik qaz boru kəmərini vaxtında istismara vermişdir. Bu da daha geniş regionun enerji təhlükəsizliyinə daha bir töhfə olacaq. Əlbəttə ki, planlar enerji dəhlizini, Xəzər-Avropa ittifaqı enerji dəhlizini yaratmaq üçün tərəfdaşlarla fəal işləməkdən ibarətdir. Bununla bağlı ötən ilin dekabrında müvafiq müqavilə imzalanıb. Bir neçə aydan sonra yeni enerji təhlükəsizliyi layihəsinin - Yaşıl Enerji Dəhlizinin, inteqrasiya edilmiş ötürücü, istehsal və istehlak müəssisələrinin, o cümlədən Qara dənizin dibindən keçəcək elektrik kabelinin tam texniki-iqtisadi əsaslandırması hazır olacaq. Hazırda 4 qiqavat gücündə bərpa olunan enerji mənbələri üçün texniki-iqtisadi əsaslandırma hazırlanır. Beləliklə, bunlar Azərbaycanımızın perspektiv planlarıdır və müstəqillik tarixinin təkcə enerji sahəsində deyil, bütün sahələrdə planlarımızın gerçəkləşdiyini göstərir. Çünki dövlətimizin, onun müzəffər rəhbəri cənab İlham Əliyevin siyasi iradəsi, güclü diplomatiyası vardır.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**